**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**FƏLSƏFƏ, SOSİOLOGİYA VƏ HÜQUQ İNSTİTUTU**

*Əlyazması hüququnda*

**ZÜLFÜQAR İBRAHİM OĞLU İBRAHİMLİ**

# İNTELLEKTUAL RESURSLARIN İDARƏ OLUNMASININ NƏZƏRİ ƏSASLARI

İxtisas: 7207.01 – Sosial fəlsəfə

Fəlsəfə üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

## AVTOREFERATI

**BAKI-2013**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun «Sosial fəlsəfə» şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Əbülhəsən Fərhad oğlu Abbasov**
fəlsəfə üzrə elmlər doktoru, professor

**Rəsmi opponentlər:** **İzzət Əşrəf oğlu Rüstəmov**
fəlsəfə üzrə elmlər doktoru, professor

**Qoşqar Cəlal oğlu Əliyev**
fəlsəfə üzrə elmlər doktoru, professor

**Aparıcı təşkilat:** **Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası**

Müdafiə «29___» ___03_______ 2013-cü il tarixində saat ____da Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun nəzdində elmlər doktoru və fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.01.115 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1143, Bakı şəhəri, H.Cavid prospekti 31. AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu, konfrans zalı.

Dissertasiya ilə AMEA-nın Mərkəzi Elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat «______» _____________ 2013-cü il tarixində göndərilmişdir.

Fəlsəfə, Sosiologiya və Hüquq
İnstitutunun nəzdindəki D.01.115
Dissertasiya Şurasının elmi katibi,
fəlsəfə üzrə fəlsəfə doktoru: **S.A. Həsənova**

# I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** İntellektual resurslar və onlarda təcəssüm edən yaradıcı potensial həmişə filosof, iqtisadçı, politoloq və sosioloqların diqqət mərkəzində olmuşdur. Bəşəriyyətin postindustrial inkişaf mərhələsinə keçməsi ilə əlaqədar intellektual resursların cəmiyyətin sosial-iqtisadi və mənəvi inkişafında rolu kəskin şəkildə artdı. İnsanın şüuru, onun intellekti iqtisadiyyatın və bütövlükdə cəmiyyətin inkişafının mənbəyinə çevrildi. Artıq, inkişaf etmiş ölkələrdə intellektual kapital strateji resurslar sırasına daxil edilir. Müasir dünyada əsas mübarizə məhsul üzərində deyil, intellektə malik olma, ona çıxış imkanının artırılması üzərində gedir. Tarixi təcrübə göstərir ki, məhz nümunəvi təhsil, elm, texnika-texnologiya, səhiyyə, mədəniyyət və mənəviyyat səviyyəsinə malik olan ölkələr sosial-iqtisadi inkişafda lider mövqeyinə yüksəlirlər.

Postindustrial cəmiyyəti xarakterizə edən əsas əlamətlər ictimai inkişafda maddi faktorların rolunun azalması, əsas resurs kimi informasiya və biliyin rolunun artmasıdır. Postindustrial cəmiyyətə keçidlə əlaqədar ictimai həyatın bütün sahələrində ciddi transformasiyalar müşahidə edilir, intellekttutumlu amillərin, qeyri-maddi istehsalın rolu nəzərəçarpacaq dərəcədə artır. Bu transformasion proseslərin gedişində «resurs» və «kapital» anlayışlarının özlərinin də mahiyyəti əhəmiyyətli dərəcədə zənginləşir, onlar yeni məna-məzmun çalarları qazanır. Eyni zamanda informasiya və biliyin daşıyıcısı olan insanın və bütövlükdə intellektual resursların əsas məhsuldar qüvvəyə çevrilməsi idarəetmə paradiqmasının dəyişməsinə gətirib çıxarır.

Yuxarıda göstərilən səbəblərdən intellektual resursların və intellektual kapitalın mahiyyətinin, struktur elementlərinin, formalaşması xüsusiyyətlərinin və idarə olunmasının adekvat epistemologiyaların əsasında tədqiqi, öyrənilməsi xüsusi aktuallıq kəsb edir. Mövzunun aktuallığı, günbəgün artan nəzəri və praktiki əhəmiyyəti, eyni zamanda, ölkəmizdə yetərli səviyyədə onun elmi tədqiqatlara cəlb edilməməsi və öyrənilməməsi, ən əvvəl, intellektual resursların idarə olunmasının nəzəri, fəlsəfi-konseptual əsaslarının işlənib hazırlanmasını tələb edir. Məhz bu zərurət tədqiqat mövzusunun seçimini müəyyənləşdirmişdir.

**Problemin işlənmə səviyyəsi.** İntellektual kapital konsepsiyasının meydana gəlməsində neoklassik məktəbin nümayəndələrinin xidmətləri əvəzolunmazdır. Məhz bu məktəbin nümayəndələri tərəfindən (İ.Fişer,

C.Dyui, C.Klark) «kapital»ın elmi şərhi genişləndirildi. 20-ci əsrin ikinci yarısında müstəqil istiqamət kimi insan kapitalı konsepsiyası meydana gəldi. Bu konsepsiya müasir intellektual kapital konsepsiyasının meyana gəlməsi üçün həlledici əhəmiyyətə malik idi. Onun başlıca ideyaları H.Bekker, T.Şülts, M.Blauq, S.Bouls, U.Bouen, S.Qrilixes, E.Denison, C.Kendrik, L.Turou, F.Maxlup[1] kimi tədqiqatçılar tərəfindən inkişaf etdirilmişdir.

20-ci əsrin son onilliyindən başlayaraq insanın intellektual qabiliyyətlərinin məhsuldar imkanları haqqında təsəvvürləri tamamlayan və genişləndirən intellektual kapital nəzəriyyəsi formalaşmağa başladı. Onun formalaşmasında O.Toffler, C.Helbreyt, M.Kastels, F.Fukuyama, M.Sakakibara, T.Styuart, E.Brukinq, L.Edvinsson, M.Meloun[2], P.Strastman, Ç.Xendi, L.Pursak və digər tədqiqatçıların rolunu xüsusi qeyd etmək olar. Rus tədqiqatçıları arasında bu sahənin tədqiqində S.Dyatlov, V.Qoylo,

---

[1] Becker G.S. The human capital: A Theoretical and empirical Analysis whit Special Reference to Education. N.Y., 1964; Schultz T. Capital Accumulation and Economic Development. Boston, 1967; Schultz T. W. Investment in Human Capital: The Role of Education and Research. N.Y. 1971; Блауг М. Экономическая мысль в ретроспективе. Пер. с англ. М., 1994; Blaug M. An Introduction to the Economics of Education. London, 1970; Bowen W. Investments in Human capital and Economic Growth-Perspectives on economic growth. N.Y.,1968; Bowen H.R. Investment in Learning. San Francisco, 1977; Griliches Z., Jorgenson D. Capital Theory: Technical Progress and Capital Structure // The American Economic Review. May, 1966; Denison E.F. Accounting for us Economic Growth 1929-1969. W., 1974; Kendrick J.W. Productivity Trends: Capital and Labour // Review of Economics and Statistics. May,1956; Кендрик Дж. Совокупный капитал США и его формирование. М., 1978; Thurow L.C. Investment in Human Capital. Belmont, 1970; Machlup F. The Economics of Information and Human Capital. N.Y., 1984; Махлуп Ф. Производство и распространение знаний в США / Пер. с англ. М., 1966.

[2] Тоффлер Э. Смещение власти: знание, богатство и принуждение на пороге XXI века / Реф. кн. АНСССР ИНИОН. М., 1991; Фукуяма Ф. Доверие. Социальные добродетели и путь к процветанию: Пер. с англ. М., 2004, Stewart T. A. Intellectual capital. New Wealth of Organizations. N.Y., 1997; Стюарт Т. Интеллектуальный капитал. Новый источник богатства организаций. М., 2006; Брукинг Э. Интеллектуальный капитал: ключ к успеху в новом тысячелетии. СПб., 2001; Edvinson L., Malone M. Intellectual capital: Realizing Your Company's True Value by Finding Its Hidden Brainpower. New York, 1997;

V.İnozemtsev, S.Klimov, A.Çuxno, O. Butnik-Siverskini[1] və digərlərinin xidmətlərini göstərmək olar.

İntellektual resursların idarə edilməsi sahəsində P.Draker, M. Armstronq, K.Arcins, K.Viiq, T.Devenport, İ.Nonaka, X.Takeuşi, M.Polani, A. De Quis, M.Porter, K.Sveybi, P.Senqe, P.Sallivan, B.Millerin[2] və digər tədqiqtçıların danılmaz xidmətləri vardır. Ümumiyyətlə, tədqiqat işində insan kapitalı, intellektual kapital konsepsiyaları müasir idarəetmə paradiqması ilə əlaqələndirilməyə çalışılmışdır.

Azərbaycanda intellektual resursların idarə edilməsinin sosial-fəlsəfi aspektləri indiyədək xüsusi tədqiqat obyekti kimi öyrənilməyib. Bu sahə heç iqtisadçılar tərəfindən də lazımi səviyyədə tədqiq edilməmişdir.

---

[1] Дятлов. С. А. Основы теории человеческого капитала. СПб., 1994; Гойло В. Интеллектуальный капитал // Мировая экономика и международные отношения. 1998, №11; Иноземцев В. Л. За пределами экономического общества. Постиндустриальные теории и постэкономические тенденции в современном мире. М,1998; Иноземцев В. Парадоксы постиндустриальной экономики (инвестиции, производительность и хозяйственный рост в 90-е годы) // Мировая экономика и международные отношения. 2003 №3. с. 3-11; Климов С.М. Интеллектуальные ресурсы организации. СПб., 2000; Чухно А. Интеллектуальный капитал: сущность, формы и закономерность развития // Экономика Украины. 2002 № 11, с. 48-55; Бутник-Сиверський О. Интеллектуальный капитал: теоретичный аспект // Интеллектуальный капитал. 2002, №1, с. 16-27.

[2] Drucker P. Post-Capitalist Society. N.Y., 1995, 362 p.; Drucker P.F. The Age of discontinuity. Guidelines to Our Changing Society. L., 1994.; Nonaka I. Strategic vs. Evolutionary management: A US-Japan Comparison of Strategy and Organisation. Amsterdam, 1985; Nonaka I., Takeuchi H. The Knowledge - Creating Company. How Japanese Companies Create The Dynamics of Innovation. Oxford, 1995; Армстронг М. Практика управления человеческими ресурсами. Спб., 2005; Полани М. Личностное знание: На пути к посткритической философии / Общ. ред. Лекторского В. А. и Аршинова В.И. М., 1985; Geus A. de. Planning as Learning // Harvard Business Review, August-September, 1998. p. 70-74; Портер М. Конкуренция. СПб., 2002; Sveiby K.E. Measuring Intangibles and Intellectual Capital // An Emerging Firs Standard / internet version. Aug. 5. 1998. p.35; Sveiby K.E., Lloyd T. Managing Know-how. London, 1987.; Сенге. П. Пятая дисциплина: искусство и практика самообучающейся организации. М., 1999; Sullivan P.H. Profiting from Intellektual Capital: Extracting Value from Innovation. 1998.; Мильнер Б. З.Управления знаниями. М., 2003.

Problemin ayrı-ayrı aspektlərinə fəlsəfi-sosioloji və iqtisadi ədəbiyyatda bir sıra elmi tədqiqat xarakterli yazılar həsr edilmişdir. Azərbaycanda bu sahənin tədqiqində Ə.F.Abbasovun (intellektual-insan resursları) [1], Ş.Muradovun (insan potensialı)[2], A.Muradovun[3] (elmi-texniki potensial, intellektual potensial) xidmətlərini qeyd etmək olar. Azərbaycanda intellektual resursların idarə edilməsi probleminin işlənilməsi isə, demək olar ki, ilkin mərhələdədir. İdarəetmə sahəsində çoxsaylı tədqiqat işlərinin aparılmasına baxmayaraq, intellektual resursların idarə olunmasının bir çox nəzəri məsələləri kifayət qədər işlənilməmişdir. T.Quliyevin [4] və K.A.Şahbazov, M.H.Məmmədov, H.S.Həsənovun[5] həmmüəllifliyi ilə çap edilmiş menecment dərsliklərində kreativ menecment haqqında qısa şəkildə məlumat verilir. Kreativ idarəetmə ilə bağlı maraqlı fikirlər akademik Ramiz Mehdiyevin[6] son illərdə nəşr olunmuş əsərlərində də irəli sürülür. Eyni zamanda, filosof Əbülhəsən Abbasovun mürəkkəblik fəlsəfəsi, sinergetika və postneoklassik epistemologiya zəminində yaradıcı idarəetməyə, bütövlükdə, intellektual resursların formalaşmasına və idarə olunmasına dair əldə etdiyi elmi nəticələr, hərtərəfli əsaslandırılmış fikirləri, təklif və tövsiyələri böyük aktuallığa və əhəmiyyətə malikdir[7].

**Tədqiqatın məqsəd və vəzifələri.** İntellektual resurslar və intellektual kapital problemi sosial-fəlsəfənin tədqiqat problemləri sırasına nisbətən yaxın zamanlarda daxil olmuşdur. Əvvəllər bu problem daha çox iqtisadi tədqiqatların obyekti idi. İntellektual resursların idarə edilməsi probleminin

---

[1] Abbasov Ə.F. İntellektual resurslar – müasir cəmiyyətin innovasion sisteminin əsasıdır // UNESCO-nun təsis etdiyi Ümumdünya Fəlsəfə gününə həsr edilmiş Respublika Elmi Konfransının Materialları. B., 2006. s. 31-35.

[2] Muradov Ş. İnsan potensialı: əsas meyllər, reallıqlar, problemlər. B., 2004.

[3] Muradov A. N. Elmi-texniki potensial: əsas inkişaf meylləri və problemləri. B., Elm., 2004.

[4] Quliyev T. Menecmentin (idarəetmənin) əsasları. B., 2006.

[5] Şahbazov K., Məmmədov M., Həsənov H., Menecment. B., 2007.

[6] Mehdiyev R. Azərbaycan: Qloballaşma dövrünün tələbləri. Bakı, 2004; Mehdiyev R. Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşmə xətti // Xalq qəzeti, 16 yanvar 2008.

[7] Abbasov Ə.F. İdarəetmənin sinergetik fəlsəfəsi: yeni dialoq naminə. B., 2006; Аббасов А.Ф. Философия сложности. Б., 2007; Abbasov Ə.F. İnnovasion inkişaf naminə: intellektual sərvət və milli elita // Azərbaycan qəzeti, 3 noyabr 2009-cu il.

fəlsəfi aspektlərinin işıqlandırılmasına ayrı-ayrı iqtisadçıların, sosioloqların, filosofların əsərlərində əsasən epizodik şəkildə rast gəlinirdi. Sosial-fəlsəfi tədqiqat intellektual kapitalı yalnız kapitalın növlərindən biri kimi deyil, həm də böyük potensiala malik olan, çoxşaxəli resurs kimi nəzərdən keçirir. Tədqiqat işinin əsas məqsədi intellektual resursların idarə edilməsinin nəzəri əsaslarının öyrənilməsindən ibarətdir. Sosial-fəlsəfi müstəvidə aparılmış elmi-tədqiqat işi intellektual resursların mövcudluğunu, formalaşmasını və fəaliyyətini, onların idarə olunmasını müəyyənləşdirən və şərtləndirən əsas elementlərin öyrənilməsinə istiqamətlənmişdir. Müəllif elmi biliklərin sintezi, qarşılıqlı əlaqəsi əsasında intellektual resursların idarə olunmasına dair yeni sosial-nəzəri yanaşmanın formalaşdırılmasına cəhd göstər. Qarşıya qoyulmuş məqsədlə əlaqədar aşağıdakı vəzifələr müəyyən edilmişdir:

- biliyin müasir cəmiyyətin həyatında tutduğu yeri və oynadığı rolu müəyyənləşdirmək, onun mədəni-mənəvi və sosial-iqtisadi resurs kimi spesifikliyini və formalaşma qanunauyğunluqlarını öyrənmək, aşkar və qeyri-aşkar (gizli) növlərinin təbiətini tədqiq etmək;
- intellektual resursların və intellektual kapitalın tədqiqinin epistemoloji əsaslarını müəyyənləşdirmək və sistemləşdirmək;
- intellektual kapitalın sosiomədəni, mənəvi və sosial-iqtisadi mahiyyətini, struktur və funksional elementlərini aşkarlamaq, onların qarşılıqlı əlaqə və asılılığını təhlil etmək;
- intellektual resursların formalaşması və inkişafını şərtləndirən faktorları aşkarlamaq;
- postindustrial cəmiyyətdə yaradıcılığın əhəmiyyətini, səciyyəvi xüsusiyyətlərini müəyyənləşdirmək, istehsal prosesində və izafi dəyərin yaradılmasında yaradıcı əməyin rolunu tədqiq etmək;
- intellektual resursların idarə edilməsi sahəsində nəzəri konsepsiya və modelləri öyrənmək, onların müqayisəli təhlilini aparmaq;
- intellektual resursların idarə edilməsinin effektliliyini artıran əsas səbəb və faktorları müəyyənləşdirmək;
- intellektual investisiyaların təbiətini, onların ictimai inkişafda, milli maraqların ödənilməsində və milli sərvətin yaradılmasında rolunu tədqiq etmək;
- Azərbaycan Respublikasında intellektual resursların formalaşması, inkişafı və idarə edilməsi vasitələrinin təkmilləşdirilməsi ilə bağlı təkliflər və tövsiyələr hazırlamaq.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın predmeti intellektual resurslar, intellektual kapital və onların idarə edilməsi ilə bağlı proseslərdir. Tədqiqatın obyekti intellektual resursların formalaşması və fəaliyyəti ilə bağlı olan sosial-siyasi, mədəni-mənəvi və iqtisadi münasibətlər, intellektual resursların idarə edilməsinin qnoseoloji və metodoloji məsələləridir.

**Tədqiqatın ideya-nəzəri və metodoloji əsasları.** Tədqiqat işində müxtəlif elm sahələrinin nailiyyətlərindən istifadə etməklə baxılması vacib bilinən sosial-siyasi, iqtisadi, mədəni, psixoloji, mənəvi və digər proseslərin öyrənilməsinə cəhd göstərilmişdir. Qarşıya qoyulmuş məsələlərin həllində tarixi-konkretlik, sinergizm, sistemlilik prinsipləri rəhbər tutulmuş, müqayisəli təhlil, struktur-funksional, özünəməxsusluqla bəşəriliyin vəhdəti, məntiqi və faktoloji əsaslandırma metodlarından, həmçinin ayrı-ayrı elmlərin spesifik yanaşmalarından istifadə olunmuşdur. Dünya fəlsəfi, iqtisadi, sosial-siyasi, hüquqi fikrin müxtəlif istiqamətlərini təmsil edən alimlərin fundamental elmi konsepsiya, ideya və baxışları tədqiqat işinin nəzəri əsasını təşkil edir. Daha çox cəmiyyətin iqtisadi, sosial və elmi-mədəni fəaliyyət sahələrinə, elmin metodologiyasına, iqtisadi nəzəriyyəyə, menecment problemlərinə, bilik menecmentinə, strateji idarəetməyə, müasir epistemologiya problemlərinə və s. istiqamətlərin tədqiqinə həsr edilmiş əsərlərdə irəli sürülmüş fikir və konsepsiyalara geniş yer verilmişdir.

**Tədqiqatın informasion bazası.** Azərbaycan Dövlət Statistika Komitəsinin, Dünya Bankının, BMT İnkişaf Proqramının statistik və faktoloji materialları tədqiqatın informasion bazasını təşkil edir.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyi ilk dəfə olaraq intellektual resursların idarə edilməsi probleminin sosial-fəlsəfənin xüsusi tədqiqat obyekti kimi öyrənilməsindədir. Tədqiqat işində müxtəlif elm sahələrinin nailiyyətlərindən bəhrələnməklə, intellektual resursların idarə edilməsinə dair konseptual yanaşmanın vacibliyi əsaslandırılır, bu istiqamətdə təklif və tövsiyələr irəli sürülür. Konkret olaraq, tədqiqatın elmi yeniliyi aşağıdakılardan ibarətdir:

1. Biliyin mahiyyətini və müasir cəmiyyətin həyatında oynadığı rolu aşkara çıxaran nəzəriyyə və konsepsiyaların əsas ideyaları, tezisləri ümumiləşdirilmiş, bilik istehsalının müasir informasion cəmiyyətin mühüm və müəyyənedici xüsusiyyəti olması göstərilmişdir. Müasir cəmiyyətdə biliyin əmək fəaliyyətinin bilavasitə məhsulu, istehlak predmeti, məhsulların istehsalı prosesində istifadə edilən istehsal vasitəsi və resursu, bölgü predmeti, idarəetmə aləti, cəmiyyətin bütövlüyünün qorunması, saxlanıl-

ması, onun demokratik konsolidasiyası vasitəsi kimi çıxış etməsi əsaslandırılmışdır.

2. Dünya fəlsəfi, sosioloji və iqtisadi fikrinin inkişafı prosesində intellektual kapital haqqında təsəvvürlər sistemi nəzərdən keçirilmiş, «kapitalın» təhlilinə dair epistemoloji prinsiplər sistemləşdirilmiş, ənənəvi yanaşmaların məhdudluğu göstərilmişdir. İntellektual kapital konsepsiyasının formalaşmasında müxtəlif məktəblərin metodoloji yanaşmalarının üzvi qarşılıqlı əlaqəsinin, produktiv inteqrasiyasının rolu əsaslandırılmışdır. İntellektual kapitalın hərtərəfli tədqiqi üçün qnoseoloji-metodoloji, aksioloji bazanın genişlənməli və yeniləşməli olduğu qənaətinə gəlinmişdir.

3. İntellektual kapital haqqında mövcud nəzəri mülahizələr müqayisəli təhlil edilmiş, bu zəmində onun məzmun-mahiyyəti və strukturu araşdırılmışdır.

4. İntellektual kapitalın strukturunu müəyyənləşdirərkən, müəllif sosial kapitalı intellektual kapitalın strukturuna daxil etmişdir. ( Çoxsaylı iqtisadi tədqiqatlarda, bir qayda olaraq, sosial kapitalı intellektual kapitalın strukturuna daxil etmirlər). İntellektual kapitalın sosial-fəlsəfi təhlilinin mühüm nəticələrindən biri də məhz sosial kapitalın intellektual kapitalın strukturuna daxil edilməsidir.

5. Müasir cəmiyyətin inkişafının insanların unikal, yaradıcı qabiliyyətlərinin istifadəsinə əsaslandığı sübuta yetirilmiş, yaradıcı şəxsiyyətin, kreativ təfəkkürün ön plana çıxması zərurəti göstərilmişdir. Müasir istehsalın mühüm əsasını yaradıcılıq potensialının təşkil etdiyi, əmək prosesinin getdikcə yaradıcılıq prosesi ilə əvəz olunduğu, əməyin daha çox yaradıcı xarakter daşıdığı müəyyənləşdirilmişdir.

6. Ölkəmizdə intellektual resursların daha effektiv idarə edilməsinin zəruriliyi əsaslandırılmış, belə idarəetmənin intellektual resursların yaradılması, inkişafı və reallaşdırılmasına istiqamətlənmiş mühüm strateji fəaliyyət olduğu göstərilmişdir. Bilik menecmenti və insan resurslarının idarə edilməsi intellektual resursların idarə edilməsinin əsas nəzəri konsepsiyaları qismində nəzərdən keçirilmişdir.

7. Cəmiyyətin sosial-iqtisadi inkişafında intellektual investisiyaların əhəmiyyəti vurğulanmış; intellektual investisiyalar heyətin hazırlığı və təkrar hazırlığına çəkilən xərclər, tədqiqat işlərinə qoyulan investisiyalar şəklində müəyyən edilmişdir. İntellektual resursların milli sərvətin toplanmasında və strukturunda, sosial-iqtisadi inkişafın təmin edilməsində aparıcı rol oynadığı göstərilmişdir. İntellektual resursların təsiri altında milli

sərvətin formalaşmasının növbəti tendensiyası müəyyən edilmişdir: milli sərvətin strukturunda insan kapitalı ən üstün mövqeyə malik olmalıdır; ÜDM-da maddi nemətlərin payı getdikcə azalır, qeyri-maddi nemətlərin payı isə artır.

**Tədqiqatın elmi-nəzəri və praktiki əhəmiyyəti.** Əldə edilmiş nəzəri müddəalar, irəli sürülmüş təklif və tövsiyələr «insan resursları», «intellektual resurslar», «intellektual kapital», «insan kapitalı» kimi mövzuların, habelə, sosial-iqtisadi inkişaf problemlərinin, müasir idarəetmə metodlarının, idarəetmənin optimallaşdırılması və əməyin məhsuldarlığının artırılması məsələlərinin gələcək tədqiqi üçün faydalı ola bilər. Tədqiqat materialından «İdarəetmənin əsasları», «Əməyin iqtisadiyyatı», «Biznesdə intellektual resurslar», «Heyətin idarə edilməsi», «İnnovasion menecment» fənnlərinin tədrisində və xüsusi kursların keçirilməsi məqsədilə mühazirə mətnlərinin hazırlanmasında, tədris proqramlarının tərtibində, metodik vəsaitlərin işlənilməsində istifadə oluna bilər.

Tədqiqat prosesində əldə edilmiş elmi nəticələr və praktiki tövsiyələr sosial-iqtisadi, siyasi, elmi, mədəni islahatların reallaşdırılmasında, dövlət proqramlarının hazırlanması və həyata keçirilməsində, müəssisələrdə idarəetmənin effektivliyinin artırılmasında, investisiya fəaliyyəti ilə bağlı strateji qərarların qəbulu zamanı faydalı ola bilər.

**Tədqiqatın aprobasiyası.** Dissertasiya AMEA Fəlsəfə, Sosioogiya və Hüquq İnstitutunun «Sosial fəlsəfə» şöbəsində müzakirə olunaraq müdafiəyə məsləhət görülmüşdür. Dissertasiya müəllifin çap olunmuş elmi məqalələrində, konfrans və seminarlarda etdiyi çıxışlarda öz əksini tapmışdır. Dissertasiya mövzusu üzrə 10 elmi məqalə çap edilmişdir.

**Tədqiqat işinin strukturu.** Dissertasiya girişdən, altı yarımfəsli əhatə edən iki fəsildən, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **«Giriş»** hissəsində mövzunun aktuallığı əsaslandırılır, onun işlənmə dərəcəsi, tədqiqatın məqsəd və vəzifələri, elmi yeniliyi, nəzəri-metodoloji əsasları, elmi-nəzəri və praktiki əhəmiyyəti müəyyənləşdirilir, aprobasiyası və strukturu nəzərdən keçirilir.

**Üç yarımfəsli əhatə edən «İntellektual resurslar sosial-fəlsəfi tədqiqatın obyekti kimi»** adlanan **birinci fəsildə** postindustrial cəmiyyətdə biliyin rolu və müasir elmdə intellektual kapital anlayışına münasibət

araşdırılır, intellektual resursların mühüm komponenti və istehsalın mühüm resursu kimi biliyin xüsusiyyətləri barədə ətraflı məlumat verilir, intellektual resursların mahiyyəti, strukturu və genezisi təhlil edilir, postindustrial cəmiyyətdə əməyin və tərəqqinin reallaşdırılmasının əsas formalarından olan yaradıcı fəaliyyət təhlil obyektinə çəkilir, biliklər iqtisadiyyatı, biliyə əsaslanan cəmiyyət və informasion cəmiyyət konsepsiyalarının, «insan kapital»ının, sosial kapitalın tərkib hissəsi olan etibar amilinin mahiyyəti açıqlanır, fikir və mülahizələr irəli sürürlür.

Bu fəslin **«Postindustrial cəmiyyətdə biliyin rolu və müasir elmdə intellektual kapital anlayışı»** adlanan birinci yarımfəslində qeyd olunur ki, cəmiyyətin müasir inkişaf mərhələsini sosial-iqtisadi, mənəvi-mədəni dəyişikliklər kompleksi kimi nəzərdən keçirmək daha düzgündür. Belə ki, bu dəyişikliklər sayəsində yeni tip cəmiyyət formalaşır. Burada biliyin həlledici rol oynadığı intensiv proseslər cərəyan edir: biliyə əsaslanan iqtisadiyyat formalaşır, cəmiyyətin dəyərlər sistemində transformasiyalar baş verir, elmin təşkili formaları təkmilləşir, təhsil sistemi köklü surətdə yenilənir. İşdə intellektual resursların mühüm komponenti və istehsalın mühüm resursu kimi biliyin dörd xüsusiyyəti barədə ətraflı məlumat verilir və mövzu ilə bağlı aparıcı tədqiqatçıların fikirlərinə münasibət bildirilir.

Biliyin cəmiyyətdə rolunun artması, əksər inkişaf etmiş ölkələrdə istehsalın və idarəetmənin texnoloji bazasının dəyişməsinə gətirib çıxardı. Artıq kütləvi istehsal prosesi üçün əvvəllər xarakterik olmayan faktorlar ön plana çıxdı. Birincisi, qlobal proseslər getdikcə daha böyük əhəmiyyət qazanmağa başladı. Qlobal proseslərdə rəqabət qabiliyyəti ayrı-ayrı ölkələrin iqtisadi qüdrətinin mühüm tərkib hissəsinə çevirildi. İkincisi, yeni iqtisadiyyatda firmaların müvəffəqiyyəti və dayanıqlılığı xeyli dərəcədə fasiləsiz yenilikdən asılı olur. Məhsul və xidmətlərin həyat dövrünün qısaldığı, ənənəvi məhsullar üçün bazar yolunun gələcək diversifikasiyası, tələb və təklifin getdikcə daha çox fərdiləşməsi şəraitində innovasion aktivlik böyük əhəmiyyət kəsb edir. Üçüncüsü, sosial-iqtisadi inkişaf fasiləsiz texnoloji inkişaf fazasına qədəm qoyur. Bu da bütün ictimai münasibətlər kompleksinin struktur xarakterini dəyişir. Yeni peşələr, yeni idarəetmə sistemləri, yeni təhsil texnologiyaları meydana gəlir.

Dissertasiyada postindustrial cəmiyyət xarakterizə edilərkən, ilk növbədə bu cəmiyyətdə elmi biliyin kapital formasında məhsuldar qüvvələrin müstəqil və mühüm elementi kimi çıxış etməsi göstərilir. Tədqiqatçıların əksəriyyətinin fikrincə, intellektual kapital müasir istehsalın həlledici fak-

toruna çevirilib. İntellektual kapital ölkələrin tərəqqisində getdikcə daha mühüm rol oynayır.

Postindustrial dövrün məhsuldar qüvvələri üçün insanın əqli, idraki və yaradıcı qabiliyyətlərinin böyük rol oynaması səciyyəvidir. Postindustrial inkişaf mərhələsinin özünəməxsusluğu ondan ibarətdir ki, bu mərhələdə biliyin strateji sosial-iqtisadi resurs və kapital kimi rolu durmadan artır. Görkəmli iqtisadçı və sosioloq U.Şumpeter öz tədqiqatlarında göstərdi ki, iqtisadiyyat yalnız istehsala daha çox maddi-texniki resursların və maliyyənin cəlb edilməsi sayəsində inkişaf etmir. O, həm də yeniliyə təşəbbüs göstərən sahibkarlıq aktivliyi, innovasiyaların, yeni biliklərin və təkliflərin tətbiqi sayəsində inkişaf edir. Şumpeterin fikrincə, iqtisadi aktivlik, bazarların inkişafı müəyyən innovasion dövrlərə müvafiq olur[1].

Müasir dövrdə bilik və informasiya istehsalın mühüm faktorlarından biri kimi çıxış edir. İstehsalın bu mühüm faktorunu adətən intellektual kapital adlandırırlar. Ancaq intellektual kapitalı sadə bilik və informasiya kimi müəyyən etmək olmaz. O, bilik və informasiyadan daha geniş tutumlu anlayışdır. İntellektual kapitalı belə müəyyən etmək olar: informasiya və bilik konkret müəssisə çərçivəsində «kapital» formasını əldə edir. Torpaq, avadanlıq, xammal, pul kimi ənənəvi aktivlərdən fərqli olaraq intellektual kapital, demək olar ki, görünməz və hissedilməzdir.

İntellektual kapital insanların, cəmiyyətin müvafiq proseslər, problemlər, həllər haqqında toplanmış elmi, nəzəri və praktiki biliklərini ifadə edir. İntellektual kapital düşüncə və idrakın, məqsədyönlü və şüurlu praktiki fəaliyyətin universal formaları əsasında formalaşan mürəkkəb, çoxölçülü fenomendir. İntellektual kapitalın iqtisadi və fəlsəfi təbiətindən çıxış edərək onu biliklər, yaradıcı qabiliyyətlər sistemi kimi nəzərdən keçirmək olar. Bu biliklər və yaradıcı qabiliyyətlər insan düşüncəsinin sistemli xarakterinə əsaslanır. Sosial-fəlsəfi kateqoriya kimi intellektual kapital intellektual mülkiyyət forması alan, kreativ fəaliyyətin nəticələrinin istehsalı və onların özgəninkiləşdirilməsinə dair yaranan münasibətləri ifadə edir. Bu münasibətlər intellektual mülkiyyətin daşıyıcıları və onun potensial istehlakçıları arasında yaranır. Öz inkişafının müəyyən mərhələsində dayanıqlı əlavə

---

[1] Schumpeter J.A. History of Economic Analysis. N.Y., 1954.

dəyər yaratmağa imkan verən insanın yaradıcı qabiliyyətləri intellektual kapitalın əsasını təşkil edir. Bu anlamda intellektual kapital insanın bilik, bacarıq və qabiliyyətlərinin cəmini, onun mobilliyini (yeni informasiya qəbul və təhlil etmə, təlim, yeni şəraitə adaptasiya qabiliyyəti), yeni məhsulun yaranmasını təmin edən kreativliyini və cəmiyyətin qeyri-maddi potensialını özündə ehtiva edir.

Tədqiat işində qeyd edilir ki, intellektual kapital konsepsiyası klassik, tarixi, institusional, marksist və neoklassik məktəblərin metodoloji mövqelərinin qovşağında meydana gəlmişdir. Bu konsepsiyanın formalaşmasında neoklassik məktəbin rolu xüsusən önəmlidir. Neoklassiklərə görə bilik, bacarıq, istedad, həmçinin pul olmayan, ancaq məlum şərtlər daxilində mənfəət gətirən, deməli, təkrar istehsal edilə, öz-özünə arta bilən bir çox digər şeylər də kapital hesab edilir[1]. Məhz kapitalın belə anlamı sayəsində əvvəlcə elmi dövriyyəyə insan kapitalı anlayışı, daha sonra isə intellektual kapital anlayışı daxil oldu.

Birinci fəslin **«İntellektual resursların mahiyyəti, strukturu və genezisi»** adlanan ikinci yarımfəslində qeyd olunur ki, intellekt anlayışı özünə əxlaqi, emosional, psixoloji dəyərləri daxil edir. Dissertasiyada «intellekt» kateqoriyası insanın düşüncə, rasional idrak (dərketmə), abstrakt-analitik fəaliyyət qismində, yeni informasiya yaratmaq bacarığı kimi şərh edilir.

İlk dəfə 1993-cü ildə İsveç sığorta şirkəti «Scandia» öz illik hesabatında malik olduğu intellektual kapital haqqında məlumat dərc edib. Bununla da iqtisadi hadisə (fenomen) kimi intellektual kapital qeydə alınıb. Tədqiqatçılar intellektual kapitalı müxtəlif şəkildə müəyyən edirlər. Görkəmli filosof və sosioloq O.Toffler elmi dövriyyəyə «simvolik kapital» anlayışını daxil edir. Onun fikrincə, bu kapital forması biliyi özünə daxil edir; o, kapitalın ənənəvi formalarından fərqli olaraq, tükənmir, eyni zamanda, heç bir məhdudiyyət olmadan çoxsaylı istifadəçilər tərəfindən istifadə edilə bilir[2]. L. Edvinson və M. Meloun intellektual kapitalı kampaniyanın gizli

---

[1] Ванюрихин Г.И. Креативный менеджмент // Менеджмент в России и зарубежом. 2001. №2. с.84.

[2] Тоффлер Э. Смещение власти: знание, богатство и принуждение на пороге XXI века / Реф. кн. АН СССР ИНИОН. М., 1991, с.32.

dəyəri, biznesin qeyri-maliyyə tərkib hissəsi, inkişafın gizli şərti kimi müəyyən edirlər[1].

Müasir elmi ədəbiyyatda intellektual potensial, intellektual resurslar və intellektual kapital anlayışları yaxın, bəzən isə oxşar və ya eyni mənalarda istifadə edilir. «Resurs» anlayışı adı altında tədqiqatçılar istənilən maddi, məsələn, pul vəsaitlərinin mövcud olmasını; hamı tərəfindən qəbul edilmiş dəyərləri; müəyyən ehtiyatları (informasiya, bilik, formalaşmış münasibətlər); imkanları (təhsil, subyektin fiziki və psixiki sağlamlığını); müəssisənin gəlir mənbələrini başa düşürlər. Bu kontekstdə intellektual resurslar dissertasiyada aşağıdakı kimi nəzərdən keçirilir: insanın və ya kollektivin intellektual fəaliyyətinin mənbəyi qismində çıxış edən istənilən formalı informasiya ehtiyatı; mütəxəssisin peşəkar-şəxsi xüsusiyyətləri (öyrənməyə həvəs, qabiliyyəti, səriştə və s.); lazım olan halda (təhlil, əqli nəticə, tədqiqat metodları və s.) müraciət edilən vasitələr.

Tədqiqatçıların əksəriyyəti intellektual kapitalın qarşılıqlı əlaqədə olan elementlərdən ibarət olduğunu qəbul edirlər. İntellektual kapitalın strukturunu insan kapitalı, təşkilati kapital və sosial kapital kimi müəyyən etmək olar.

İntellektual kapitalın ən mühüm elementi insan kapitalıdır. «İnsan kapitalı» konsepsiyası ötən əsrin 60-cı illərində formalaşmağa başlamışdır. Bu konsepsiyanın tərəfdarlarının fikrincə, insan kapitalı müasir işçinin istehsal qabiliyyətlərinin cəmini ifadə edir. Dar mənada təhsil kapitalın formalarından biri kimi nəzərdən keçirilir. Geniş mənada isə insan kapitalı təhsil, istehsalatda işçi qüvvəsinin hazırlanmasına çəkilən xərclər, sağlamlığın qorunması, miqrasiya, informasiya axtarışı şəklində insana investisiya qoyulması vasitəsilə formalaşır. Nobel mükafatı laureatı H.Bekker özünün «İnsan kapitalı: nəzəri və empirik təhlil» adlı fundamental kitabında insan kapitalının mahiyyətini məhz bu cür müəyyən edir[2].

İntellektual kapitalın digər mühüm tərkib hissəsi sosial kapitaldır. Sosial kapitala həm struktur, həm də institusional aspektdən yanaşmaq olar. Struktur yanaşmada sosial kapitalın mahiyyəti sosial şəbəkə anlayışının

---

[1] Эдвинссон Л., Мэлоун М. Интеллектуальный капитал. Определение истинной стоимости компании // Новая постиндустриальная волна на западе. Антология / Под. ред. В. Иноземцева. М., 1999, с. 429-447.

[2] Becker G.S. The human capital: A Theoretical and empirical Analysis whit Special Reference to Education. N.Y., 1964, p. 187.

köməyi ilə aydınlaşır. O, şəbəkə əlaqələrinin cəmi kimi çıxış edir. İnstitusional aspektdən yanaşdıqda isə sosial kapital etibar anlayışına əsaslanır. Sosial kapital etibarın mövcudluğu nəticəsində meydana gələn müəyyən resurs kimi nəzərdən keçirilir.

İntellektual resursların idarə olunması idarəetmə fəaliyyətinin spesifik istiqamətidir. İntellektual resursların idarə olunmasını onların «yaradılmasının, dəyişdirilməsinin, artırılmasının və həyata keçirilməsinin idarə edilməsi kimi nəzərdən keçirmək lazımdır»[1]. Müasir menecment nəzəriyyəsində intellektual resursların idarə edilməsinin iki mühüm istiqaməti fərqləndirilir: insan resurslarının idarə edilməsi və biliklərin idarə edilməsi (bilik menecmenti).

Bilik menecmenti konsepsiyasının formalaşmasına Yapon tədqiqatçıları İ.Nonaka və Q.Takeuçinin tədqiqatları böyük təsir göstərdi. İ.Nonakanın fikrincə, Qərb menecerlərinin əksəriyyəti biliyə, onun kampaniyada istifadəsinə məhdud çərçivədə yanaşırlar. Bilik menecmenti konsepsiyasının yaradıcılarından olan Nonaka və Takeuçi öz nəzəriyyələrində postpozitivizmin görkəmli nümayəndəsi M.Polaninin təklif etdiyi biliyin təsnifatı (aşkar və qeyri-aşkar bilik) konsepsiyasını qəbul etdilər. Aşkar və qeyri-aşkar biliyin epistemoloji vahidlər qismində ayrilmasına əsasən Nonaka biliyin transformasiyasının dörd vasitəsini müəyyən edir [2] : sosiallaşma (gizli biliyin təşkilatın bir üzvündən digərinə ötürülməsi prosesi), eksternalizasiya (gizli biliyin aşkar biliyə çevrilməsi prosesi), kombinasiya (aşkar biliyin bir insandan digərinə ötrülməsi prosesi), internalizasiya (aşkar biliyin gizli formaya çevrilməsi). İ.Nonaka biliyin yaradılmasını müəyyən ardıcıllıqla gizli biliyin aşkar biliyə və əksinə çevrilməsi kimi nəzərdən keçirir. Bu prosesdə gizli bilik daha mühüm rol oynayır. Bir çox tədqiqatçıların fikrincə, yapon kompaniyalarında biliyin yaradılması prosesinə spesifik yanaşma onların müvəffəqiyyətini təmin etmişdir. Belə yanaşmaya əsasən əməkdaşların suyektiv baxış və gümanlarının innovasion məhsul və xidmətlərə transformasiyası məqsədilə onların əməli surətdə yoxlanılması və nəzərə alınması üçün kompaniyalarda imkan-

---

[1] Багов В.П., Селезнев Е.Н., Ступаков В.С. Управление интеллектуальным капиталом. М., 2006, с. 108.

[2] Nonaka I., Takeuchi H. The Knowledge - Creating Company. How Japanese Companies Create The Dynamics of Innovation. Oxford. 1995, p. 291.

lar olmalıdır. Məhz bu, rəqəmsal hesabla bərabər, investisiyaların səmərəliliyini və rentabelliyini müəyyən edir.

Ölkəmizin intellektual resurslarının formalaşdırılması və inkişafı, müasir tələblər səviyyəsində idarə edilməsi, innovasion inkişaf modelinin hazırlanması zəruri məsələlər sırasındadır. Akademik R.Mehdiyev haqlı olaraq qeyd edir: «Təhsil, elm və texnoloji innovasiyaların daimi, qüdrətli dəstəyi olmadan inkişaf mümkün ola bilməz. Buna görə də Azərbaycan gənclərinin intellektual potensialını yüksəltmək məqsədini güdən təhsil proqramlarının daimi təkmilləşməsi və keyfiyyətinin artırılması son dərəcə vacibdir. Ölkənin ən qısa müddətdə, real olaraq müasirləşməsini məhz bu təmin edə bilər»[1].

Dissertasiyada intellektual resursların formalaşmasına, intellektual kapitalın istehsalına və təkrar istehsalına təsir göstərən üç amil – ümumi təhsil və elmin inkişaf səviyyəsi; səhiyyə sisteminin effektivliyi; vətəndaşların iqtisadi və sosial (yaradıcı) özünüreallaşdırmaya istiqamətlənməsi faktorları ətraflı təhlilə cəlb olunur.

Birinci fəslin **«Yaradıcı fəaliyyət postindustrial cəmiyyətdə əməyin və tərəqqinin reallaşdırılmasının əsas forması kimi»** adlanan üçüncü yarımfəslində yaradıcılıq prosesinin mahiyyəti və mərhələləri, «fasiləsiz yaradıcılıq» strategiyası təhlil olunur, ümimiləşdirmələr aparılır. Qeyd olunur ki, yaradıcı şəxs öz qeyri-maddi ehtiyaclarının əksər hissəsini peşəkar fəaliyyət sferasında təmin etməyə çalışır. Bu proses bilik və informasiyanın istehsalı ilə onların istehlakı arasında sıx bağlılığın olmasına əsaslanır. Mahiyyət baxımından bilik və informasiyanın istehsalı, onların istehlakı ilə oxşardır. Yeni, qeyri-maddi ehtiyaclar onların təmin olunmasının yeni sahələrini meydana gətirir.

İnnovasion cəmiyyətdə işçinin ixtisası səriştəsi, təhsili, biliyi, təcrübəsi ilə, həm də onun yaradıcı qabiliyyətləri ilə müəyyən edilir. Heyətin yaradıcı potensialı təşkilatın müvəffəqiyyətini təmin edən faktorlardan birinə çevrilir. Belə şəraitdə bilik və təcrübə ilə yanaşı, təsəvvür kamilliyi, düşüncənin çevikliyi, yeni ideyalar yaratmaq, qeyri-standart məsələləri həll etmək kimi qabiliyyətlər müvəffəqiyyəti təmin edən faktorlar sırasına daxil edilir. Beləliklə, müasir dövrdə yaradıcılıq rəqabət üstünlüyünü və cəmiyyətin intensiv inkişafını təmin edən mühüm sosial-iqtisadi resursa çevrilmişdir.

---

[1]Mehdiyev R. Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşmə xətti // «Xalq qəzeti», 16 yanvar 2008-ci il.

Sosial-iqtisadi proseslərdə yaradıcılıq fenomeninin rolunun artması və onun rəqabət üstünlüyünü təmin edən əsas vasitələrdən birinə çevrilməsi aparıcı kompaniyaları «fasiləsiz yaradıcılıq» strategiyasını tətbiq etməyə sövq etdi. «Fasiləsiz yaradıcılıq» strategyasını tətbiq edən kompaniyalara nümunə kimi «Proctor&Gamble» kompaniyasını göstərmək olar. Bu kompaniya 1930-cu illərdən başlayaraq, hər il Tide yuyucu tozunun yeni növünü istehsal edir[1]. «Fasiləsiz yaradıcılıq» strategyasını həyata keçirən, heyətin yaradıcı imkanlarını əsas resurs qismində istifadə edən kampaniyaların sırasına «3M», «American Express», «General Electric», «İBM», «Johnson&Johnson», «Merck», «Motorola», «Sony» və yüzlərlə digər kompaniyaları aid etmək olar[2] .

Dissertasiyanın ikinci fəsli «**İntellektual resursların idarə edilməsi: nəzəriyyə və praktika**» adlanır. Bu fəsildə insan resurslarının idarə olunması və bilik menecmentinin əsasları tədqiqata cəlb edilir, insan resurslarının mobilizasiyası və istifadəsi sahəsində mövcud idarəetmə təcrübəsi, intellektual investisiyaların milli sərvətin artımına təsiri araşdırılır, qloballaşma və ictimai transformasiya şəraitində intellektual resursların formalaşdırılması və idarə olunmasının milli strategiyası barəsində ətraflı təhlil işi aparılır.

Bu fəslin «**İnsan resurslarının idarə edilməsi və bilik menecmenti**» adlanan ilk yarımfəslində göstərilir ki, intellektual resursların idarə olunması idarəetmə fəaliyyətinin spesifik istiqamətidir. İntellektual resursların idarə edilməsini onların «yaradılmasının, dəyişdirilməsinin, artırılmasının və həyata keçirilməsinin idarə edilməsi kimi nəzərdən keçirilməsinin lazım olduğu»[3] bildirilir.

Burada insan resurslarının idarə edilməsindəki iki əsas yanaşma ətraflı təhlil olunur, mövcud fikirlərə münasibət bildirilir. Qeyd olunur ki, bu yanaşmalar insanın əməyə münasibəti haqqındakı fikirlərə əsasən formalaşmışdır. Ənənəvi idarəetmə avtokratik idarəetmə üsuluna əsaslanır və «X» nəzəriyyəsini, demokratik idarəetmə üsulu isə «Y» nəzəriyyəsini əks etdirir. «Y» nəzəriyyəsinin motivasiya mexanizmi heyətin özünüaktual-

---

[1] Амблер Т. Практический маркетинг. СПб., 1999, с.183.

[2] Rickards T. «Organizat ions interested in creativity» // Runco, M. A. and Pritzker, S. R. (Eds.) Encyclopedia of Creativity. San Diego, 1999. p. 235.

[3] Армстронг М. Практика управления человеческими ресурсами. Спб., 2005, с.108.

laşdırma tələbatının təşviq edilməsini nəzərdə tutur. «Y» nəzəriyyəsinə əsaslanan insan resurslarının idarə edilməsi siyasəti işçinin təşkilata inteqrasiyasını nəzərdə tutur. Sonuncu elə fəaliyyət şəraitinin yaradılmasını nəzərdə tutur ki, burada hər bir işçi öz məqsədlərinə yalnız müəssisənin daha müvəffəqiyyətli işlədiyi halda nail ola bilir.

Müasir menecmentin praktikası mürəkkəb sosial-iqtisadi problemlərin şablon həllinin qeyri-effektliliyini göstərir. Bu halda insan resurslarının idarə edilməsi istehsal, innovasiya, təhsil və yaradıcılıq arasında əlaqələndirici rolunu yerinə yetirir. Mahiyyət etibarılə burada söhbət intellektual resursların idarə edilməsindən gedir. İntellektual resursların idarə edilməsi heyətin intellektual potensialının inkişafına, onun yaradıcı fəaliyyətinin dəstəklənməsinə və stimullaşdırılmasına istiqamətlənir. Bu konsepsiyanın əsas məqsədi heyətin bilik və intellektinin istifadə edilməsindən maksimum sosial-iqtisadi effekt əldə etməkdir.

Tədqiqat işində insan resurslarının səfərbərliyi və istifadəsi sahəsində yapon idarəetmə təcrübəsi təhlil olunub. Yaponiyada əmək sisteminin təşkili qeyri-rəsmiliyə, çevikliyə və kooperasiyaya əsaslanır. Ümumiyyətlə, elmi ədəbiyyatda insan resurslarının istifadəsi sahəsində Yaponyanın üstün mövqeyə malik olduğu birmənalı qəbul edilir. Yapon işçilərinin bir çox göstəricilərə görə öz qərbli kolleqalarını üstələdikləri vurğulanır. Tədqiqatçıların bir hissəsi hesab edir ki, yapon işçilərindəki bu xüsusiyyətlər, yapon cəmiyyətində hələ də qorunub saxlanan sosiomədəni ənənələrin nəticəsidir. Digər qrup tədqiqatçılar isə yapon müəssisələrində insan faktorunun effektliliyini müasir yapon idarəetməsi ilə bağlayırlar. Prof. K.Pircels qeyd edir ki, yapon sahibkarlığının məqsədi hər bir işçinin ustalığı, istedadı və qabiliyyətindən bütünlüklə istifadə etməkdir[1].

Həmin fəslin **«İntellektual investisiyalar və milli sərvətin artımı»** adlanan ikinci yarımfəslində bildirilir ki, intellektual resursların əhəmiyyətinin artması bu sahəyə müvafiq investisiyaların qoyulmasını tələb edir. İnsana kapital qoyuluşu insan kapitalının formalaşması üçün əsas şərtlərdən biridir. Əsas məqsəd bunlardan ibarətdir: bilik və ixtisası genişləndirilmək; informasiyaya, mədəni dəyərlərə malik olmaq; əməkqabiliyyətli dövrü

---

[1] Журавлев П.В., Кулапов М.Н., Сухарев С.А. Мировой опыт в управлении персоналом. Обзор зарубежных источников. М., 1998, с. 93.

uzatmaq, xəstəliklərin qarşısını almaq və ya onların mualicəsini qısaltmaq, ətraf mühitin qorunması hesabına insanın məhsuldarlığını artırmaq.[1]

Dissertasiyada insana qoyulan investisiyalar olmadan işçi qüvvəsinin və bütövlükdə iqtisadiyyatın hərtərəfli inkişafının mümkün olmadığı bildirilir. Bu xərclər istehlak xərcləri hesab edilmir. Onlar uzunmüddətli sosial-iqtisadi effekt yaratmağa qadir olan məhsuldar kapital qoyuluşu, yəni investisiya kimi qiymətləndirilir. İnsan kapitalı nəzəriyyəsinin tərəfdarlarının fikrincə[2], təhsil, iş yerində hazırlıq, istehsalatda təcrübənin toplanması, sağlamlığın qorunması, coğrafi mobillik, informasiyanın axtarışı insana qoyulan investisiya qismində çıxış edə bilər.

Müasir dövrdə kapitalın strukturunda intellektual komponent mühüm əhəmiyyət kəsb edir. İntellektual kapitalın ilk tədqiqatçılarından olan T.Stüart əmlak, avadanlıq və digər uzunmüddətli aktivlərə çəkilən xərclərlə yanaşı, elmi tədqiqatı və kadr hazırlığını da kapital adlandırır[3]. Başqa bir fikrə görə, «əgər elmə qoyulan xərclər biliyin dərinləşməsinə, texnologiya və məhsulların təkmilləşməsinə gətirib çıxaran investisiya kimi nəzərdən keçirilirsə, onda elmdə toplanmış investisiyanı elmi kapital» adlandırmaq olar[4]. Araşdırmalara görə, ABŞ və Qərbi Avropada insana qoyulan ümumi investisiyaların (həm dövlət, həm də özəl) həcmi istehsal vasitələrinə qoyulmuş bütün özəl və dövlət investisiyalarının həcmini 4 dəfə üstələyir[5].

Dissertasiyada əldə olunmuş nəticəyə görə, postindustrial cəmiyyətə keçidlə əlaqədar milli sərvət anlayışı əhəmiyyətli dəyişikliklərə məruz qalıb. Postindustrial inkişaf mərhələsində meydana gəlmiş sərvətin yeni formaları milli sərvətin bütün strukturunu dəyişdirib. İntellektual kapital nəzəriyyəsi milli sərvət, yığım, məhsul və mənfəət anlayışlarının daha geniş şərhinə səbəb olub. Ümumiyyətlə, ölkənin milli sərvətinin tərkibinə həm maddi, həm də qeyri-maddi komponentlər daxildir.

---

[1] Васильев В.С. У времени в плену: российские реалии и экономическая теория Г.Беккера // США: экономика, политика, идеология. 1996, №4, с.22.

[2] Капелюшников Р.И Современные буржуазные концепции формирования рабочей силы. (критический анализ). М., 1981, с. 287.

[3] Стюарт Т. Интеллектуальный капитал. Новый источник богатства организации // Новая постиндуст. волна на западе. Антол. М., 1999, с.374.

[4] Путь в XXI век: стратегические проблемы и перспективы российской экономики. М., 1999, с. 351.

[5] Популярная экономическая энциклопедия / Гл. ред. А.Д. Некипелов. М., 2001,с.302.

İnsan kapitalı nəzəriyyəsinin yaradıcıları belə hesab edirlər ki, insanın məhsuldar əmək bacarığı, onun ümumi və xüsusi biliyi sərvətin əsas formalarından biridir. Daha sonra insanın sağlamlığı, toplanmış elmi bilik və təcrübə də sərvətin qeyri-maddi formasına aid edilməyə başlanıb.

Sərvətin yeni konsepsiyası Dünya Bankının himayədarlığı ilə yaradılmış mütəxəssislər qrupu tərəfindən də aktiv şəkildə öyrənilir. Onlar dünyanın regionlar üzrə qruplaşdırılmış 92 ölkəsində sərvətin mühüm komponentlərinin eksperimental qiymətləndirilməsini aparmışlar. Bu qrupa daxil olan mütəxəssislərdən C.Dikson və K.Hamiltonun fikrincə, milli sərvət insan resurslarından, istehsal aktivlərdən və təbii sərvətdən ibarətdir. Onların apardıqları hesablamalara görə, milli sərvətin strukturunda insan resursları üstün mövqeyə malikdir.

**«Qloballaşma və ictimai transformasiya şəraitində intellektual resursların formalaşdırılması və idarə olunmasının milli strategiyası»** adlanan üçüncü yarımfəslində müasir dövrdə intellektual resursların formalaşdırılması yolları və istiqamətləri təhlil olunur, onların idarə olunması üçün hansı milli strategiyanın işlənib-hazırlanmasının zəruriliyi barəsində fikirlər irəli sürülür. Qeyd olunur ki, intellektual resursların formalaşmasına, intellektual kapitalın istehsalına və təkrar istehsalına üç faktor – ümumi təhsil və elmin inkişaf səviyyəsi, səhiyyə sisteminin effektivliyi, vətəndaşların iqtisadi və sosial (yaradıcı) özünüreallaşdırmaya istiqamətlənməsi mühüm təsir göstərir.

İntellektual resursların formalaşmasına, intellektual kapitalın təkrar istehsalına ən güclü təsir göstərən faktor elmin inkişaf səviyyəsi və ETTKİnin (elmi-tədqiqat və təcrübi-konstruktor işləri) keyfiyyətidir. Elm intellektual kapitalın meydana gəlməsini təmin edən əsas faktordur. Bu gün «böyük yeddilik» ölkələri daha böyük elmi potensiala malikdirlər. Bu ölkələrdə təxminən dünya elmi potensialının 90% cəmləşmişdir. Onlar dünya üzrə yüksək texnologiyalar bazarının 80%-nə nəzarət edirlər. Bu bazarın təxmini həcmi 2,5-3 trillion dollar həcmində qiymətləndirilir[1].

Azərbaycanda elmi fəaliyyətin 63%-i dövlət sektorunun, 26,7% ali təhsil müəssisələrinin, 10,3%-i isə özəl sektorun payına düşür. Elmi tədqiqatla məşğul olanların 77%-i dövlət sektorunda, 9%-i ali təhsil müəssisələrində, 14%-i isə digər təşkilatlarda çalışır[2]. Ölkədə elmi mühitdə mövcud olan

---

[1] Высокие технологии XXI века. М., 2003, с.12.

[2] Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiya. B., 2009.

problemlər ölkə rəhbərliyinin daim diqqət mərkəzindədir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 4 may 2009-cu il sərəncamı ilə «Azərbaycan Respublikasında 2009-2015 illərdə elmin inkişafı üzrə Milli Strategiyanın həyata keçirilməsi ilə bağlı Dövlət Proqramı» təsdiq edilmişdir. Milli Strategiya Azərbaycan elmi qarşısındakı mühüm problemlərin həllini və elmin gələcək inkişaf perspektivlərini nəzərdə tutur. Bu strategiyanın həyata keçirilməsi ilə Azərbaycan elmi bir sıra mühüm problemlərin həllinə nail ola bilər.

Azərbaycanda intellektual resursların inkişafına maneə törədən faktorlardan biri işçilərin yaradıcı potensialının lazımı səviyyədə istifadə edilməməsidir. Belə ki, Azərbaycanda fəaliyyət göstərən menecer-praktiklər üçün yaradıcılıq məfhumu müəyyən formaya malik olmayan, istehsal və iqtisadiyyatdan daha çox, elm və incəsənət sahəsinə aid nə isə qeyri-müəyyən bir şeydir. Onların fikrincə, yaradıcılığı idarəetmənin məlum sxeminə daxil etmək mümkün deyildir. O, proqnozlaşdırılmaz və nəzarətedilməzdir. Ölkəmizdəki menecerlərin əksəriyyəti, ümumiyyətlə, yaradıcılığa və onun müasir tələblər səviyyəsində idarə edilməsinə skeptikcəsinə yanaşırlar. Fikrimizcə, bu, menecerlərin təhsil və peşəkarlıq səviyyəsinin lazımi səviyyədə olmamasını göstərir. Belə görünür ki, bu kateqoriyaya aid menecerlərin əksəriyyəti idarəetmə və innovasiya sahəsində baş verən yeniliklər haqqında kifayət qədər məlumatlı deyillər.

Akademik R.Mehdiyev haqlı olaraq qeyd edir ki: «Təhsil, elm və texnoloji innovasiyaların daimi, qüdrətli dəstəyi olmadan inkişaf mümkün ola bilməz. Buna görə də Azərbaycan gənclərinin intellektual potensialını yüksəltmək məqsədini güdən təhsil proqramlarının daimi təkmilləşməsi və keyfiyyətinin artırılması son dərəcə vacibdir. Ölkənin ən qısa müddətdə, real olaraq müasirləşməsini məhz bu təmin edə bilər…Təhsil və elm zəruri səviyyədə olmasa, milli inkişafın perspektivləri və Azərbaycan dövlətçiliyinin davamlı inkişafı barədə düşünməyimiz çətin olacaqdır».[1] Bu məqsədlə milli ideologiyanın əsaslı işlənilməsi danılmaz zərurətdir. Ə.F. Abbasovun fikrincə, milli ideologiya «cəmiyyətin iqtisadi, siyasi, sosial və mənəvi fəaliyyət sahələrində, həmçinin beynəlxalq aləmdə dövlətin münasibətlərində əsas kimi qəbul olunan və rəhbər tutulan ideya və prinsiplərin, müddəa və şərtlərin cəmini ifadə edir. Bu ideologiyanın mühüm təyinatı ondan ibarət-

---

[1] Mehdiyev R. Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşmə xətti // Xalq qəzeti, 16 yanvar 2008.

dir ki, cəmiyyətin müxtəlif həyat sahələrinin təşkil və idarə olunması konkret ölkənin bütün spesifik cəhətləri nəzərə alınmaqla bəşəri ideya və prinsiplər əsasında, rasional üsul və metodlarla həyata keçirilsin»[1]. Milli ideya fərdlər və qruplar arasında tarazlığı, maraqların uzlaşmasını təmin etməli, vətəndaş-dövlət münasibətlərini optimal tərzdə tənzimləməli, ümumi rifahın və cəmiyyətdaxili sosial harmoniyanın bərqərar olmasını bir məqsəd kimi qarşıya qoymalıdır. İnnovasion inkişafı təmin etmək, intellektual kapitalın formalaşması və effektiv fəaliyyətinə nail olmaq üçün Azərbaycanda elm, təhsil, bütövlükdə mədəniyyətin innovasion əsaslara keçirilməsi zəruridir. Bunun üçün ölkədə bir sıra zəruri islahatlar aparılmalı, innovasion ictimai şüurun formalaşması üçün zəruri məqamları özündə əks etdirən təsəvvürlər sistemi formalaşdırılmalıdır.

İşin «Nəticə» hissəsində aparılmış tədqiqata yekun vurulur, ümumiləşdirmələr edilir və əsas müddəalar göstərilir, təklif və tövsiyələr irəli sürülür.

Dissertasiyanın əsas məzmunu müəllifin nəşr olunmuş aşağıdakı elmi məqalələrində öz əksini tapmışdır:

1. Qloballaşma dövründə özünütəşkil edən cəmiyyət və ona keçid problemi // Azərbaycan Dövlət Pedoqoji Universitetinin xəbərləri, Bakı, 2006, № 1, s.452-458.
2. Qloballaşma və cəmiyyətin özünütəşkil prosesi // Tarix və onun problemləri, Bakı, 2006, № 4, s.267-272.
3. İnsan resursları cəmiyyətin inkişafının əsas faktorudur // «Fəlsəfə» (elmi-nəzəri jurnal), Bakı, 2008, № 1(10), s.128-132.
4. Postindustrial cəmiyyətdə intellektual resurslar problemi // Sosial-siyasi problemlər (Elmi-nəzəri jurnal), Bakı, 2008, № 2-3 (19-20), s.270-274.
5. Müasir elmdə intellektual kapital anlayışı // Elmi əsərlər (Beynəlxalq elmi-nəzəri jurnal), AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu, Bakı, 2009, № 1-2 (13), s.14-19 (həmmüəlliflə).
6. Sosial iqtisadi tərəqqinin təmin edilməsində sosial kapitalın rolu // AMEA-nın Xəbərləri, İqtisadiyyat Elmləri Seriyası, Bakı, 2009, № 2-2009, s.156-161.

---

[1] Abbasov Ə.F. Milli dövlətçilik ideologiyamız: şərtləri və prinsipləri // Cəmiyyət. İdeologiya. Təfəkkür (məqalələr toplusu) B., 2004, s. 5-19.

7. İntellektual resursların və milli sərvətin artımı // Bakı Slavyan Universitetnin Elmi Əsərləri, İctimai-siyasi elmlər seriyası, Bakı, 2009, №2, s. 99-105.

8. İnsan kapitalı davamlı inkişafın əsası kimi // Qloballaşma şəraitində davamlı inkişafın aktual problemləri. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 88-ci il dönümünə və Müasir Azərbaycan Dövlətçiliyinin 93 illiyinə həsr edilmiş beynəlxalq konfransın materialları. Azərbaycan Universiteti. Bakı, 4-5 may 2011, s.155-157.

9. Bilik menecmenti idarəetmənin yeni paradiqması kimi // Elmi əsərlər (Beynəlxalq elmi-nəzəri jurnal), AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu, Bakı, 2011, № 2 (17), s.127-131.

10. Интеллектуальный капитал: социально-философский анализ // Гилея. Науковий вестник. Национальный педагогический университет им. М.П. Драгоманова. Украинская академия наук. Киев, 2012, Выпуск 60(№5), с. 366-372.

**Зульфугар Ибрагим оглы Ибрагимли**

## ТЕОРЕТИЧЕСКИЕ ОСНОВЫ УПРАВЛЕНИЯ ИНТЕЛЛЕКТУАЛЬНЫМИ РЕСУРСАМИ

## РЕЗЮМЕ

Диссертация посвящена изучению теоретических основ управления интеллектуальными ресурсами на современном этапе развития человечества.

В первой главе («Интеллектуальные ресурсы как объект социально-философского исследования») анализируется роль знания в постиндустриальном обществе и отношение к понятию интеллектуального капитала в современной науке, даются подробные сведения об особенностях знания как важной компоненты интеллектуальных ресурсов и производственного капитала, изучается сущность, структура и генезис интеллектуальных ресурсов, а также феномен творчества как одного из основных форм реализации труда и прогресса в информационном обществе. Здесь же освещается суть концепций экономики знаний, общества знаний и информационного общества, понятий «человеческий капитал» и «социальный капитал». Подробно анализируются научные основы изменения технико-технологической базы производства и управления в большинстве развитых стран в связи с повышением роли знания в обществе.

Во второй главе («Управление интеллектуальными ресурсами: теория и практика») исследуются основы управления человеческими ресурсами и знаниями, изучается современная управленческая практика в сфере мобилизации и использования человеческих ресурсов. Определяется влияние интеллектуальных инвестиций на увеличение национального богатства, обосновывается тесная связь всестороннего развития рабочей силы и экономики с инвестициями в интеллектуальные ресурсы. В контексте глобализации и общественной трансформации проводится детальный анализ национальной стратегии формирования и управления интеллектуальными ресурсами.

В заключении обобщаются основные научные выводы, подводится итог исследованию, определяются перспективы дальнейшей работы.

**Zulfugar Ibrahim oghlu Ibrahimli**

## THEORETICAL BASES MANAGEMENT OF INTELLECTUAL RESOURCES

### SUMMARY

The thesis is dedicated to investigation theoretical foundations of management intellectual resources in a modern period.

In the first chapter named «The intellectual resources as an object of social-philosophical research» investigated the role of knowledge in postindustrial society and the concept of intellectual capital in modern science, provides detailed information on the characteristics of knowledge as an important component of intellectual resources and production, analyzed the essence, structure and genesis of intellectual resources, creative act as a main forms of implementation progress and work in postindustrial society be an object of analysis, explained the nature of the concepts knowledge economy, the knowledge-based society, information society, «human capitals» and «social capitals», nomination thought and judgment about it. Detail analyzed scientific basis changes in the technological base of production and management in connection increased role of knowledge in society in most developed countries.

In the second chapter named «Manage intellectual resources: theory and practice» investigated basis of human resource management and knowledge management, investigated available management experience in the field mobilization and utilization of human resources, the effect intellectual investments to the increasing in national wealth, carried out a detailed analysis of national strategy establishment and management of intellectual resources under the conditions of globalization and social transformation. Justification closely relations comprehensive development labor force and economy with investment in intellectual resources.

In the conclusion are generalized the basic scientific conclusions, is summed up to research, are defined prospects of the further work.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ФИЛОСОФИИ, СОЦИОЛОГИИ И ПРАВА**

*На правах рукописи*

**ЗУЛЬФУГАР ИБРАГИМ оглы ИБРАГИМЛИ**

# ТЕОРЕТИЧЕСКИЕ ОСНОВЫ УПРАВЛЕНИЯ ИНТЕЛЛЕКТУАЛЬНЫМИ РЕСУРСАМИ

Специальность**:** 7207.01 – социальная философия

## АВТОРЕФЕРАТ

диссертации на соискание ученой степени
доктора философии по философии

**БАКУ - 2013**